

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 mart 2025-ci il №21 (2930) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram.

Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur.

Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir.

Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şövqlə qurub yaradacaqlar.

Üzümüzə gələn Novruz bayramının hər evə, hər ocağa firavanlıq, səadət və bol ruzi-bərəkət gətirməsini diləyirəm.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 mart 2025-ci il

## Prezident İlham Əliyev Novruz bayramı münasibətilə paylaşım edib




Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə sosial media hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram".

## Birinci Vitse-prezident Mehriban Əliyeva Novruz bayramı münasibətilə paylaşım edib




Azərbaycanın Birinci Vitse-prezidenti Mehriban Əliyeva Novruz bayramı münasibətilə sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavinini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, ölkələrimizin Müdafiə nazirliklərinin və müdafiə sənayesi qurumlarının əməkdaşlığının genişləndirilməsinin önəmi vurğulanıb.

Qonaq Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbənin əhəmiyyətini qeyd edib.

Zukan Helez ölkəmizin Bosniya və Herseqovinada müxtəlif sahələrdə təmsil olunmasının önəmini diqqətə çatdırıb və gələcəkdə də bu istiqamətdə əməkdaşlığa hazır olduqlarını deyib.

Bosniya və Herseqovinaya rəsmi səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfər çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamənin imzalandığını qeyd edib və Azərbaycanın bu sənədin tələblərindən irəli gələn bütün işləri görməyə, əməkdaşlığa öz töhfəsini verməyə hazır olduğunu vurğulayıb.

Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

## ANAMA: Ötən həftə 1651,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən martın 10-dan 16-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 155, tank əleyhinə 49 mina və 606 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1 651,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.




## Hərbi vəzifəlilərin təlim toplanışı başa çatıb



Müdafiə Nazirliyinin illik hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə keçirilən tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışında praktiki məşğələlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədris proqramına müvafiq olaraq toplanışa cəlb edilmiş heyətlə səhra şəraitində (çöl şəraitində) növbəti məşğələlər keçirilib.

Təlim mərkəzində baş tutmuş məşğələ zamanı əvvəlcə iştirakçılar bölmələrimizin silahlanmasında olan atıcı silahların natamam sökülüb-yığılması və istifadə qaydaları üzrə praktiki vərdişlərini sınayıblar.

**(Ardı 3-cü səhifədə)**

## Əsgəri yeriş nizamdır, nizam - döyüş hazırlığı



Yeniyetmələr ailə də, məktəbdə vətənpərvərlik ruhunda formalaşırlar, hərbi xidmətdə də bu ruhda xidmət edirlər. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra bu proses həm forma, həm məzmun, həm də mahiyyət baxımından zənginləşdi. Bunun nəticəsidir ki, Azərbaycan əsgərinin yüksək döyüş hazırlığını onun yüksək mənəvi-psixoloji hazırlığı tamamlayır. Azərbaycan əsgəri Hərbi Anda - dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edir, xidməti vəzifəsini məsuliyyətlə yerinə yetirir.

**(Ardı 7-ci səhifədə)**

# Azərbaycan ilə Bosniya və Herseqovina arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib







*Martın 17-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Zəfər parkına gələn Bosniya və Herseqovina nümayəndə heyəti Zəfər abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyində təşkil edilən rəsmi qarşılanma mərasimində fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Nazirlikdə keçirilən görüşdə Azərbaycan müdafiə naziri qonaqları salamlayıb və onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi və sonrakı əməliyyatlarda qazanılan qələbələrdən sonra ordu quruculuğu istiqamətində aparılan uğurlu islahatlar, azad edilmiş ərazilərimizdə həyata keçirilən tədbirlər, həmçinin Ermənistan-Azərbaycan şərti dövlət sərhədində əməliyyat şəraiti barədə həmkarını məlumatlandırıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən cənab Z.Helez göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Qonaq qarşılıqlı səfərlərin və bu cür görüşlərin hərbi əlaqələrimizin genişlənməsinə təkan verdiyini qeyd edərək səmərəli təcrübə mübadiləsinin aparılması, həmçinin birgə fəaliyyətlərin həyata keçirilməsi məqsədilə mütəxəssislərdən ibarət işçi qrupun yaradılmasının vacibliyini vurğulayıb.

Görüşdə Azərbaycan və Bosniya və Hersoqovinanın "Sülh Naminə Tərəfdaşlıq" proqramı, eləcə də Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində müsbət əməkdaşlıq təcrübəsinin olduğu və hər iki ölkənin hərbi qulluqçularının beynəlxalq təlimlərdə uğurla iştirakı xüsusi qeyd edilib.

Görüşün sonunda ölkələrimiz arasında əlaqələrin inkişaf dinamikasından məmnunluq ifadə olunub, hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın perspektivləri müzakirə edilib, eləcə də regional təhlükəsizlik məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.





# Azərbaycan Respublikasının müdafiə nazirinin Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, çətin, eyni zamanda, şərəfli və müqəddəs xidmətinizdə uğurlar arzulayıram.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində dövlət səviyyəsində qeyd olunan və xalqımızın əziz bayramı sayılan Novruz yazın gəlişindən, təbiətin oyanışından xəbər verir. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan qədim zamanlardan müasir günümüzədək milli-mənəvi dəyərlərimizə əbədiyaşarlıq qazandıraraq Novruz ənənələrimizi qoruyub saxlamışdır. Tarixin ən sərt mərhələlərində belə xalqımız Novruzun gəlişini özünəməxsus coşqu və yüksək əhval-ruhiyyə ilə qeyd edib. Odlar yurdu Azərbaycanda Novruz ənənələrinin yaşanması xalqımızın milli-mənəvi dəyərlərinə verdiyi dəyərin bariz nümunəsidir.

Möhtərəm Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində müstəqil respublikamızda vətəndaş həmrəyliyinə nail olunub, ölkəmiz dünya dövlətləri sırasında ən layiqli yerlərdən birini tutub. Bu gün ölkə iqtisadiyyatının dayanıqlı inkişafı təmin edilib, dövlətçilik ənənələrimiz daha da möhkəmlənib. Ölkəmizin hərbi qüdrətinin və ordumuzun peşəkarlığının daha da artırılması məqsədilə atılan addımlar ölkədə həyata keçirilən islahatların əsas hissələrindəndir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər, atılan qətiyyətli addımlar, eləcə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşan çoxsaylı nəhəng layihələr sayəsində xalq-dövlət-ordu birliyi ən yüksək səviyyəyə çatmış, Azərbaycanın dünyada nüfuzu daha da artmış, milli-mənəvi dəyərlərimizin beynəlxalq miqyasda təbliği geniş vüsət almış, Azərbaycanın mədəni irsinin, dövlətçilik ənənələrinin dünyada tanınması təmin olunmuşdur.

Bu inamlı fəaliyyətlərin məntiqi nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə 44 günlük Vətən müharibəsində, eləcə də sonrakı uğurlu döyüş əməliyyatlarında Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi qəhrəmanlıqlar, fədakarlıq nümunələri sayəsində 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımız azad edildi. Müzəffər Ali Baş Komandanın inamlı və uzaqgörən siyasəti, qətiyyətli mövqeyi, ordumuzun qüdrəti sayəsində parlaq Qələbə qazanıldı, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edildi. Bu gün rəşadətli Azərbaycan Ordusu işğaldan azad olunmuş ərazilərimizdə Vətənimizin keşiyində mətinliklə dayanmaqla genişmiqyaslı bərpa-quruculuq işlərinin icrasına layiqli töhfələr verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində Azərbaycanın suverenliyinin, müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpası uğrunda canlarından keçən şəhidlərimizin ailə üzvləri, valideynləri və döyüş əməliyyatları zamanı sağlamlığını itirən silahdaşlarımızın sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində mühüm addımlar atılır. Hər zaman olduğu kimi, Novruz bayramı ərəfəsində bütün şəhidlərimizin əziz xatirəsini də dərin hörmət və ehtiramla yad edirik. Eyni zamanda, onların valideynlərini, ailə üzvlərini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, Novruz bayramı gəlişi ilə ölkəmizə əmin-amanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bir daha hər birinizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

Novruz bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

# Müdafiə Nazirliyinin rəhbər heyəti Baş Klinik Hospitalı ziyarət edib







Martın 20-də Müdafiə Nazirliyinin rəhbərliyi Baş Klinik Hospitalda müalicə olunan hərbi qulluqçuları ziyarət edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülərək xatirəsinə dərin hörmət və ehtiram nümayiş olunub. Nazirliyin rəhbər heyəti Ulu Öndərin və şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Hospitalda müalicə olunan bir qrup hərbi qulluqçu ilə görüşüb, onların səhhəti ilə maraqlanıb, tezliklə sağlamlıqlarına qovuşaraq xidmət yerlərinə qayıtmalarını arzulayıb. Hərbi qulluqçulara bayram hədiyyələri təqdim edilib.





Sonra Hospitalın tibb işçiləri ilə görüşən müdafiə naziri onları bayram münasibətilə təbrik edib, burada müalicə və müayinə olunan hərbi qulluqçulara xüsusi həssaslıqla yanaşılması və daha keyfiyyətli xidmət göstərilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

General-polkovnik Z.Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Novruz bayramı münasibətilə təbriklərini çatdırıb.

Baş Klinik Hospitalın kollektivi və burada müalicə olunan hərbi qulluqçular yaradılan şəraitə, həmçinin göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər.

Sonra Müdafiə Nazirliyinin Tibb İdarəsinin rəisi vəzifəsini icra edən tibb xidməti polkovniki Anar İsmayılov hərbi tibb sahəsində aparılan uğurlu islahatlar, ehtiyatda və xidmətdə olan hərbi qulluqçulara, onların ailə üzvlərinə daha keyfiyyətli tibbi xidmət göstərilməsi məqsədilə tətbiq olunan yeniliklər, o cümlədən yeni praktik müalicə yanaşmaları barədə brifinq təqdim edib.

Müdafiə nazirinə məruzə olunub ki, hərbçilərimizin müayinə və müalicəsi üçün bütün növ şəraitin yaradıldığı Baş Klinik Hospitalda tibbi personal yüksək peşəkarlıq və həvəslə fəaliyyət göstərir.

Sonda müdafiə naziri Hospitalın ərazisində tibb xidmətinin balansında olan, müasir avadanlıqlarla təchiz edilmiş, ambulator xidmətlər üçün nəzərdə tutulmuş xüsusi avtomobillərlə tanış olub.







## Azərbaycan Ordusu bütün təxribatların qarşısını almağa qadirdir

Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən, 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi şəxsi heyətin öz xidməti döyüş fəaliyyətini daha yüksək səviyyədə icra etmək üçün zəmin yaradıb. Bildirməliyəm ki, Azərbaycan Respublikasının Konstitusiyası Ulu Öndərin şah əsəridir. Ulu Öndər Konstitusiyanın hazırlanması prosesində dəfələrlə bildirib ki, konstitusiyamız Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanmalıdır. Konstitusiyanın qəbul olunmasından sonra dövlət institutlarının vəzifə borcları da aydınlaşdı.

AZƏRTAC xəbər verir ki, bunu Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında keçirilən "Konstitusiyamız və Suverenliyimiz dövlətimizin təhlükəsizliyinin qarantıdır" mövzusundakı konfransda Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov bildirib.

"Azərbaycanın öz suverenliyini, ərazi bütövlüyünü təmin etməsi ordumuzun qarşısında duran əsas vəzifə idi. 2020-ci ilin sentyabrında başlayan II Qarabağ müharibəsi və 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatından sonra Azərbaycan öz suverenliyini bərpa etdi. Son beş ildə baş verən hadisələr onu göstərdi ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü təmin etməsi onun beynəlxalq haqqı idi. Biz Azərbaycan Ordusu olaraq bunun öhdəsindən layiqincə gəldik", - deyə Müdafiə Nazirliyinin rəsmisi vurğulayıb.

## Hərbi vəzifəlilərin təlim toplanışı başa çatıb

(Əvvəli 1-ci səhifədə)

Sonra isə ehtiyatdan çağırılmış hərbi vəzifəlilərə döyüş zamanı ilkin tibbi yardımın göstərilməsi qaydaları öyrədilib, yaralıların ərazidən təxliyə edilməsi üsulları məşq etdirilib.

Növbəti mərhələdə hərbi vəzifəlilər müxtəlif atıcı silahlardan və qumbaraatanlardan praktiki atışlar icra ediblər.

* * *

Ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışı başa çatıb.

Toplanışın başa çatması münasibətilə keçirilən bağlanış mərasimində əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.



Tədbirdə çıxış edənlər bildiriblər ki, təlim toplanışı zamanı hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması, eləcə də bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə onlarla müxtəlif ixtisaslar üzrə nəzəri və praktiki məşğələlər keçirilib. Plana əsasən, ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəliyə ordumuzun arsenalında olan müasir silah və texnikanın taktiki-texniki xüsusiyyətləri, həmçinin düzgün istifadə qaydaları və döyüş tətbiqi üsulları öyrədilib. Həmçinin onlarla milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda maarifləndirici söhbətlər aparılıb.

Təlim toplanışında qarşıya qoyulmuş məqsədlərə nail olunduğu xüsusi qeyd edilib.

Sonda təlim toplanışında fərqlənən bir qrup hərbi vəzifəli təltif olunub.

## HHQ-də təlim-metodiki toplantı keçirilib



Hərbi Hava Qüvvələrinin (HHQ) "Tərbiyəvi işin təşkili, psixoloq, şəxsi heyətin uçotu" ixtisası üzrə zabit heyəti ilə təlim-metodiki toplanış keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Sonra Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş, Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğı nəticəsində inkişaf etdirilmiş HHQ-nin tərəqqi yolu haqqında videoçarx nümayiş etdirilib.

Toplanışda tabelikdə olan bölmələrin döyüş qabiliyyətinin, eləcə də şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin daima yüksək səviyyədə saxlanılması istiqamətində həyata keçirilən fəaliyyətlərdən danışılıb.

Dövlətimizin başçısının tapşırığına əsasən şəhid ailələrinə xüsusi diqqətin göstərilməsi, onların müraciətlərinə həssaslıqla yanaşılması ilə bağlı aidiyyəti üzrə tapşırıqlar verilib.

HHQ-nin arsenalına yeni daxil olan silah və texnikanın istismarı üçün bölmələrin komplektləşdirilməsi məqsədilə müvafiq işlərin görülməsi, şəxsi heyətin bu istiqamətdə məlumatlandırılması bir daha toplantı iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda Novruz və Ramazan bayramları münasibəti ilə Hərbi Hava Qüvvələri komandanının təbriki çatdırılıb, şəxsi heyətə gələcək xidmətlərində uğurlar arzulanıb.

**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunda Novruz bayramı münasibətilə silsilə tədbirlər keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunun qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində Novruz bayramı ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın azadlığı, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrlərin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Bayram tədbirlərində çıxış edənlər yazın gəlişinin ölkəmizdə sevinc, coşqu və təntənə ilə qeyd edilməsindən, Novruz ənənələrinin tarixindən, milli-mənəvi dəyərlərimizdən söhbət açıblar.

İşğaldan azad edilmiş, eləcə də digər ərazilərdə dislokasiya olunmuş hərbi hissələrdə milli-mənəvi dəyərlərimizin təbliği, şəxsi heyətin döyüş ruhunun və vətənpərvərlik hissinin daha da artırılması məqsədilə keçirilən tədbirlərdə dövlətimizin başçısının və müdafiə nazirinin təbrikləri şəxsi heyətə çatdırılıb.



Keçirilən tədbirlərdə Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrinin estrada heyətinin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, həmçinin rayon mədəniyyət şöbələri kollektivlərinin iştirakı ilə konsert proqramları təqdim olunub. Xidmətdə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Tədbirlər çərçivəsində, həmçinin şəxsi heyət tərəfindən şəhidlərimizin məzarları ziyarət olunub, hərbi qulluqçular şəhid ailələrinə baş çəkərək onların qayğı və istəkləri ilə maraqlanıb, bayram sovqatları təqdim ediblər.

Görüşlərdə dövlətimiz tərəfindən şəhidlərimizin xatirəsinin hər zaman uca tutulduğu, onların ailə üzvlərinin yüksək diqqət və qayğı ilə əhatə olunduğu xüsusi qeyd olunub.

## Media nümayəndələri üçün Heydər Əliyev adına Hərbi İnstitutda “Açıq qapı günü” keçirilib







Müdafiə Nazirliyinin təşkilatçılığı ilə media nümayəndələri üçün Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda "Açıq qapı günü" keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Hərbi İnstitut ərazisindəki abidəsi, eləcə də İnstitutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının Xatirə kompleksi ziyarət edilib, qarşısına gül dəstələri düzülüb.

Media nümayəndələrinə məktəbin yaranma tarixi, təlim-tədris prosesi və fəaliyyətinə dair ətraflı brifinq təqdim edilib.

Media nümayəndələri təhsil müəssisəsinin ərazisi, tədris korpusları, idman kompleksi, kursant yataqxanası, yeməkxana və digər inzibati binalarla tanış olublar.

Kursantların tədris prosesini izləyən media nümayəndələri çəkilişlər aparıb, Hərbi İnstitutda təhsil alan yerli və xarici kursantlardan müsahibələr götürüblər.

## Hərbi hissələrdə “Konstitusiya və Suverenlik İli” ilə bağlı birgə tədbirlər keçirilib



Hərbi hissələrdə "Konstitusiya və Suverenlik İli" ilə bağlı birgə tədbirlər keçirilib.

Hərbi Prokurorluqdan AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin, bütün şəhidlərin əziz və unudulmaz xatirələri yad edilib.

Sonra Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin təbrikləri, eləcə də tövsiyələri şəxsi heyətə çatdırılıb.

Bundan sonra çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu və hazırda uğurla davam etdirilən mükəmməl siyasətdən, yeni, Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil və suveren dövlətimizin qazandığı uğurlardan, Birinci Vitse-prezident Mehriban Əliyevanın bu uğurlara verdiyi töhfələrdən, xalqımızın əzmkarlığından və hərbçilərin qəhrəmanlıqlarından danışıblar.



Ardınca hərbçilər qarşısında hüquqi maarifləndirici mühazirələr oxunub, Konstitusiya və digər hüquqi aktlardan bəhs edilib, şəxsi heyətin qayğı və problemləri ilə maraqlanılıb.

# Naxçıvanda Çanaqqala Zəfərinin 110-cu ildönümü qeyd olunub







Naxçıvan Muxtar Respublikasında 18 Mart - Çanaqqala Zəfərinin 110-cu ildönümü münasibətilə tədbir keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Naxçıvan şəhərindəki Şəhidlər xiyabanında keçirilən anım mərasimində Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, Əlahiddə Ümumqoşun Ordu komandanı general-mayor Kənan Seyidov, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli, Naxçıvan şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, ictimaiyyət və media nümayəndələri, Naxçıvanda təhsil alan türkiyəli tələbələr iştirak ediblər.

Mərasimdə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra tədbir iştirakçıları türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə önünə əklil və gül dəstələri qoyublar. Çanaqqala şəhidlərinin, eyni zamanda, torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ardınca hər iki qardaş ölkənin Dövlət himnləri səsləndirilib.

Anım tədbirində Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya bildirib ki, şəhidlərimizin sarsılmaz Vətən sevgisi, xalqımızın, o cümlədən iki qardaş ölkənin birliyi və bərabərliyi ən böyük qürurumuz, zənginliyimiz və gücümüzdür. Konsul qeyd edib ki, tarixi qəhrəmanlıqlarla dolu olan millətimiz 110 il əvvəl Çanaqqalada böyük bir tarix yazıb və torpaqlarımızın işğalına heç vaxt razı olmayacağını dünyaya nümayiş etdirib.

Sonra şəhidlərin ruhuna Qurani-Kərimdən ayələr oxunub, dualar edilib. Naxçıvan Dövlət Universitetində təhsil alan türk tələbə tərəfindən böyük Zəfərə həsr olunmuş şeir deyilib.

Tədbir iştirakçıları Şəhidlər xiyabanını ziyarət ediblər, iştirakçılar tərəfindən torpaqlarımızın azadlığı naminə canlarını qurban vermiş qəhrəman oğullarımızın məzarlarına və Şəhidlər xiyabanının mərkəzində ucalan "Ana" heykəli qarşısına gül dəstələri düzülüb.

# Türkiyədə 18 Mart - Çanaqqala Dəniz Zəfərinin 110-cu ildönümü qeyd edilib



Türkiyədə 18 Mart - Çanaqqala Dəniz Zəfərinin 110-cu ildönümü qeyd edilib. Birinci Dünya müharibəsinin ən qanlı hərbi əməliyyatlarından olan Çanaqqala müharibəsi zamanı şəhid olanlardan üç mindən çoxu azərbaycanlıdır.

AZƏRTAC xəbər verir ki, mötəbər gün münasibətilə Çanaqqalada bir sıra rəsmi mərasimlər keçirilib, şəhidlərin xatirəsinə yürüşlər edilib.

Türkiyənin dövlət rəsmilərinin iştirakı ilə keçirilən ilk mərasim Çanaqqalanın Cümhuriyyət Meydanında baş tutub. Tədbir ölkənin milli müdafiə naziri Yaşar Gülerin "Çanaqqala keçilməz" sözlərinin əks olunduğu xüsusi xatirə nişanını sancdığı Türkiyə bayrağının qaldırılması ilə başlayıb. Bu nişan 1994-cü ildə Türkiyə Böyük Millət Məclisinin (TBMM) qərarı ilə Çanaqqala döyüşlərində şəhid olan 253 min qəhrəmanın xatirəsinə təsis edilib.

Sonra Türkiyənin İstiqlal Marşı səsləndirilib, şəhidlərin xatirəsinə milli istehsal gəmilərdən 21 top atışı edilib. Türkiyənin dövlət rəsmiləri Çanaqqala Şəhidliyini ziyarət ediblər.

Anım tədbirləri çərçivəsində Türkiyənin Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" akrobatik komandası Çanaqqala səmalarında nümayiş uçuşu yerinə yetirib və gəmi-



lərin keçidi olub.

Xatırladaq ki, 1915-ci ilin martın 18-dən 1916-cı ilin yanvarın 9-dək davam edən Çanaqqala döyüşləri Osmanlı ilə Antanta dövlətləri arasında baş vermiş dəniz və quru döyüşləridir. İttifaq ölkələri Osmanlı dövlətinin paytaxtı İstanbulu işğal edərək boğazlara nəzarəti ələ keçirmək, Rusiya ilə etibarlı ticarət yolu açmaq, Almaniyanın müttəfiqlərindən birini zəiflətmək məqsədilə ilk hədəf olaraq Çanaqqala boğazına girərək müharibənin taleyini qəti şəkildə həll etməyi planlaşdırırdılar. Lakin türk ordusunun qəhrəmanlığı düşmənin bu planını puça çıxardı. Bu qanlı döyüşlərdə hər iki tərəf ağır itkilər verib. Antanta dövlətlərinin hərbi dəniz qüvvələrinin Çanaqqala boğazını keçmək cəhdləri 1915-ci il martın 18-də tam məğlubiyyətə uğradı. Bu döyüşlər türk xalqının hərb tarixinə qızıl hərflərlə yazılıb.

Bu döyüşlərdə Osmanlı ordusu 250 min şəhid versə də, Çanaqqala boğazının keçilməz olduğunu düşmənə göstərdi.

Tarixi gün münasibətilə fikirlərini ifadə edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Millət olaraq böyük bir qürur və həyəcanla Çanaqqala Zəfərinin 110-cu ildönümünü anır, Çanaqqalanı



keçilməz edən qəhrəmanlarımızı rəhmət və minnətlə yad edirəm", - deyə bildirib.

Türkiyə Prezidenti paylaşımında "Çanaqqala, millət olaraq bizim əbədi və əzəli qardaşlığımızı ifadə etdiyi qədər, yerləşdiyimiz bölgənin də taleyinin ortaq olduğunu əks etdirir, rəmzləşdirir", - ifadələrini işlədib.

*Əsgərin tribunası*

# "Azərbaycan əsgəri adını daşıdığım üçün qürurluyam"

Artıq 8 aydır ki, müddətli həqiqi hərbi xidmətdəyəm. Əsgər olmaq, hərbi forma geyinmək, əldə silah Vətənimizi qorumaq hər birimizin uşaqlıqdan arzusu olub. Əmim və atam həmişə bizə Birinci Qarabağ müharibəsi döyüşlərindən, torpaqlarımızın bədnam qonşularımız tərəfindən işğal olunmasından, 44 günlük Vətən müharibəsində igid oğullarımızın şücaəti hesabına işğalın sonlandırılmasından söhbət edərdilər. Qardaşlarımla mənə necə mərd və cəsur oğullarımızın olduğunu deyər, onların qəhrəmanlıqlarından danışardılar. Ən başlıca məqsədimizin hərbi xidmətə yollanıb Vətənimizi qoruyanların sırasında olmaq olduğunu vurğulayırdılar. Bir sözlə, hərbi vətənpərvərlik tərbiyəsi ilə böyümüşük. Nəhayət, zaman yetişdi, orta təhsilimi başa vurduqdan sonra mən də hərbi xidmətə gəldim. Xidmətə gəlməmişdən qabaq hərbi xidmətdə olan tanışların Azərbaycan Ordusunun maddi-texniki təminatının, eləcə də hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksək səviyyədə olduğunu deyirdilər. Xidmətə gəldiyim gündən isə deyilən bütün sözlərin artıq canlı şahidi oldum. Hərbi hissəmizin kollektivi arasında sağlam mühit, səmimi və mehriban münasibət var. Komandir heyətimiz hər kəslə fərdi söhbətlər aparır, qayğılarımızla yaxından maraqlanır. Bizə göstərilən bu yüksək diqqəti hərbi hissəyə gəldiyimiz ilk gündən hiss etmişik. Gördüyünüz kimi, hərbi hissəmizin yataqxanaları, yeməkxanası və digər obyektləri müasir avadanlıqlarla təmin olunub. Xidmətimizi nümunəvi yerinə yetirmək üçün hər cür şərait yaradılıb.

Bundan başqa, günün nizam qaydalarına uyğun olaraq bütün fəaliyyətlərimiz səmərəli təşkil olunur. Sıra, atəş, fiziki və



digər hazırlıqlardan məşğələlərə cəlb edilir, nəzəri biliklərimizi möhkəmləndirir, praktiki vərdişlərimizi daha da təkmilləşdiririk. Hər birimiz qalib Azərbaycan Ordusunun sıralarında özümüzü yüksək əhval-ruhiyyədə hiss edirik. Şəraitimizin ürəkaçan olması, komandir heyətinin doğma münasibəti və qayğıkeşliyi bizə əlavə stimul verir.

Yeri gəlmişkən deyim ki, səhhətimizə də çox ciddi nəzarət edilir. Mütəmadi olaraq hərbi həkimlər bölməmizə gəlir, bizi müayinə edir, mövsümi xəstəliklərdən qorunmağımız üçün təlimat və tövsiyələr verir, səhhəti ilə bağlı narahatlığı olanları isə tibb məntəqəsinə aparıb müayinə və müalicə edirlər.

Bilirəm ki, bir çox əsgər analarını düşündürən ən vacib məsələlərdən biri qidalanmağımızdır. Çünki anam məni xidmətə yola salanda yeməyimə, içməyimə diqqət yetirməyimi dönə-dönə tapşırmışdı. Qidalanmağımdan çox narahat idi. Başda öz anam olmaqla, bütün analarımıza səslənirəm ki, ürəyiniz rahat olsun, biz əmin əllərdəyik. Bacarıqlı aşpazlarımız bizə milli mətbəximizin dadlı təamlarından hazırlayırlar. Xörəkləri çox keyfiyyətli ərzaqlardan bişirirlər. Evdə yediyimiz yeməklərdən heç də fərqlənmir. Həmçinin bizə gündəlik olaraq mövsümə uyğun meyvələr də verilir.

Asudə vaxtlarımızda əsgər yoldaşlarımızla söhbətləşirik. Hər kəs hərbi hissənin şəraitindən və komandirlərin doğma münasibətindən razılığını vurğulayır. Bunun qarşılığında bizim də üzərimizə bir vəzifə düşür - döyüş hazırlığımızı artırmaqla doğma Vətənimizin bizə əmanət olan torpaqlarını göz bəbəyimiz kimi qorumaq. Yaradılan belə yüksək şəraitə görə Ali Baş Komandanımıza minnətdarlığımızı bildiririk.

Bu gün qalib ordumuzun sıralarında olduğum, Azərbaycan əsgəri adını daşıdığım üçün qürurluyam.

**Əsgər**
**Günəş İMANOV**
**"N" hərbi hissəsi**

# Novruz bayramınız mübarək olsun, əziz xalqımız!

***Əsrlərlə yaşadılan adət-ənənələr xalqın mədəniyyətinin tərkib hissələrindən biridir. Xalqımızın ən qədim bayramlarından olan Novruz baharın gəlişini, təbiətin oyanmasını və yeni ilin başlanğıcını bildirir. Novruz bayramının tarixi, onun qeyd olunma ənənələri və xalqımız üçün əhəmiyyəti dərin köklərə malikdir. Novruz hər zaman xalqımız üçün birlik, əzmkarlıq və yenilməzlik rəmzi olub. Tarix boyu çətinliklərə sinə gərən xalqımız bu bayramı həmişə inam hissi ilə qeyd edib. Artıq 5 ildir ki, xalqımız Novruz bayramı işğaldan azad olunmuş, üçrəngli bayrağımızın dalğalandığı tarixi torpaqlarımızda Böyük Qələbə hissi ilə qeyd edilir. Əməkdaşlarımız hərbi qulluqçularımızla görüşərək onların Novruz bayramı ilə əlaqədar təəssüratlarını öyrəniblər. Onların təəssüratlarını oxucularımıza təqdim edirik.***

"Azərbaycan Ordusu"



**Əsgər Əmrah Əmirahov:**

- Milli-mənəvi dəyərləri özündə birləşdirən Novruz bayramı xalqımız üçün ruzili-bərəkətli olsun. Tarixi qədim olan Novruz bayramı saflığı, birliyi ilə seçilib. Xalqımıza hər zaman bir olmağı arzu edirəm. Biz bu birliyi 44 günlük Qarabağ savaşında da gördük və elə bu birliklə də torpaqlarımızın ərazi bütövlüyünü və suverenliyini bərpa edə bildik, tarixi qələbə qazandıq. Arzu edirəm ki, hər zaman yurd-yerlərimizdə bayram şamları, bayram tonqalları yandıraq, bütövlükdə hər kəs öz dədə-baba yurdunda firavan yaşasın.

Vətənə layiqli xidmət etmək hər kəsin borcudur. Biz əsgərlər də çalışırıq ki, bu borcu layiqincə yerinə yetirək. Azərbaycan Ordusu ana Vətənimizin keşiyində dayanaraq öz müqəddəs missiyasını uğurla yerinə yetirir. Xoşbəxtik ki, bu gün üçrəngli bayrağımız dədə-baba yurdlarımızda, işğaldan azad olunmuş torpaqlarımızda dalğalanır.

Novruz bayramı hər birinizin evinə sevinc, süfrələrinizə bolluq gətirsin. Bayramınız mübarək olsun!



**Əsgər Əliağa Aslanov:**

- Xalqımız əsrlər boyu Novruzu qoruyub saxlamış, hətta çətin tarixi dövrlərdə belə onun ənənələrinə sadiq qalmışdır. Müstəqillik qazandıqdan sonra Novruz ölkəmizdə dövlət səviyyəsində böyük təntənə ilə keçirilən milli bayrama çevrilib.

İllərdir həsrətində olduğumuz doğma Vətənimizin azad edilmiş torpaqlarında xidmət etmək və bu bayramı burada qeyd etmək qürurvericidir.

Mən bu gün işğaldan azad edilmiş ərazilərimizdə xidmət edirəm. Orta məktəbdə aşağı sinifdə oxuyanda hələ İkinci Qarabağ müharibəsi olmamışdı. Ancaq arzu edirdim ki, erməni işğalı tezliklə sona yetsin, elindən, obasından didərgin düşmüş soydaşlarımız doğma yurdlarına qayıtsınlar. Arzularım çin oldu. Azad edilmiş ərazilərimizə artıq həyat yenidən qayıdır. Uzun müddət elindən, obasından ayrı düşmüş soydaşlarımızın doğma evlərinə qayıtdıqlarını, onların orada yeni həyata başladıqlarını görüncə ürəyim dağa dönür. Güclü, qüdrətli ordumuzun əsgəri olmaqdan necə qürur duymayım? Axı atalarımız, qardaşlarımız bu torpağın hər qarışı uğrunda döyüşüb, qanlarından, canlarından keçiblər. Onların qəhrəmanlıqları sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunub. Artıq 5 ildir ki, xalqımız bayramlarını hər yerdə olduğu kimi, azad edilmiş ərazilərimizdə də təntənə ilə qeyd edir. Novruzun ruhu birlik və həmrəylikdir. O, bizi bir-birimizə daha da yaxınlaşdırır, mehribanlıq və xeyirxahlıq hisslərimizi gücləndirir. Novruz bayramı münasibətilə bütün xalqımı, millətimi təbrik edir, hər evə Novruz işığı, bahar təravəti, bol ruzi-bərəkət arzulayıram. Bayramınız mübarək olsun!



**Əsgər Elgün Qocayev:**

- Bu gün Azərbaycan Ordusunda xidmət edən bir əsgər kimi hər kəsi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz qədimdən xalqımızın birlik və həmrəylik rəmzi olmuşdur. Bu bayram təbiətin yenidən oyanması, baharın gəlişi və yeni ümidlərin başlanğıcıdır.

Uşaqlıqdan Novruzu böyük sevinclə qarşılayırdıq. Səməni yetişdirmək, tonqaldan tullanmaq, yumurta döyüşdürmək, Novruz xonçalarını bəzəmək - bütün bunlar bizim dəyərli adət-ənənələrimizdir. Hər il bu bayramda evlərimizə sevinc dolur, insanlar bir-birini təbrik edir, küsülülər barışır, böyüklərimizə ehtiram göstərilir.

Bu gün mən Vətənimin keşiyində dayanaraq, Novruzu doğmalarımın yanında deyil, silahdaşlarımla birgə qeyd edirəm. Ancaq bu, mənim üçün böyük qürurdur. Çünki biz Azərbaycan Ordusunun bir parçası olaraq Vətənimizin ərazi bütövlüyünü və suverenliyini qoruyuruq.

Bu bayram günündə Azərbaycan xalqına sülh, firavanlıq və xoşbəxtlik arzulayıram. Qoy, Novruz ocağı hər evə sevinc, bərəkət və xoş günlər gətirsin. Ailəmə və bütün yaxınlarıma salamlarımı göndərir, onlara möhkəm cansağlığı və xoşbəxt günlər arzulayıram. Novruz bayramınız mübarək!

**Əsgər Sabir İmanzadə:**

- Əziz valideynlərim, doğmalarım və Azərbaycan xalqı. Sizi xalqımızın ən qədim və əziz bayramlarından biri olan Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Bu bayram min illərdir ki, xalqımızın ən gözəl adət-ənənələri ilə yaşadılır, birlik və bərabərlik rəmzinə çevrilir. Qoy, tonqalların alovu bütün çətinlikləri yandırıb külə döndərsin, sular təravət və təmizlik gətirsin, yurdumuzda bolluq, bərəkət və xoşbəxtlik hökm sürsün. Qoy, bu Novruz xalqımıza yeni uğurlar, ölkəmizə isə daha da möhkəmlənən birlik və tərəqqi gətirsin!



Hazırda Vətənin keşiyində dayanan bir əsgər olaraq, bu əziz gündə hər birimizə sülh, əmin-amanlıq, bol ruzi-bərəkət və sevinc dolu günlər arzulayıram. Novruzun gətirdiyi yenilik və bahar ruhu hər bir evə sevinc, hər bir ailəyə firavanlıq, hər bir ürəyə sevgi və ümid bəxş etsin!

Bu bayram günlərində biz əsgərlər Vətənimizin müdafiəsi uğrunda ayıq-sayıq dayanır, müqəddəs torpaqlarımızın keşiyini çəkirik. Ən böyük arzumuz xalqımızın daim müstəqil və firavan yaşamasıdır. Bayramınız mübarək!

**Əsgər Elnur Hüseynov:**



- Uşaqlığımızdan bəri hər il Novruz bayramını böyük sevinc hissi ilə gözləyərdik. Çərşənbə axşamlarında xonça tutar, papaq atar, tonqal qalayardıq. Ağırlığım, uğurluğum odlara deyib, gələcəyə daha şad, xürrəm çıxmağı arzu edərdik. Təbiətin oyanışı, baharın gəlişi insanlarda ruh yüksəlişinə səbəb olur. Əvvəlki illərdə biz həmişə tonqal qalayanda böyüklərimizdən bir dua eşidərdik: "O gün olsun, bu bayram tonqalları Qarabağda qalansın". Bu gün bu niyyətlər öz əskini tapıb, illərin həsrətinə son qoyulub. İndi ancaq bir duamız var ki, bərpa-quruculuq işləri işğaldan azad olunmuş torpaqlarımızda başa çatsın və hər kəs öz tonqalını ata-baba yurdunda yandıra bilsin. Xidmət etdiyim bölmənin şəxsi heyəti adından, şəxsən öz adımdan Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçumuzu, o cümlədən xalqımızı bu əziz bayram münasibətilə təbrik edir, hamıya cansağlığı, uzun ömür arzulayıram.



**Əsgər Zakir Hüseynov:**

- Fəxr edirəm ki, mən qalib Azərbaycan Ordusunun əsgəriyəm. İşğaldan azad olunmuş ərazilərimizdə yerləşən bölmələrimizdə xidmət edir, doğma Vətənimizin keşiyində əzmlə dayanaraq, torpaqlarımızın azadlığının qürurunu yaşayırıq. 30 ilə yaxın düşmən işğalında qalmış əzəli, tarixi torpaqlarımız rəşadətli Azərbaycan Ordusunun cəsur, fədakar hərbi qulluqçularının, şəhidlərimizin sayəsində azad olundu. Xalqımız haqlı olduğu savaşda Zəfər qazandı. İndi işğaldan azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işləri çox sürətlə aparılır. Erməni vandalları tərəfindən dağıdılmış tarixi abidələrimiz bərpa olunur, öz əvvəlki vəziyyətinə qaytarılır. Üçrəngli bayrağımızın dalğalandığı azad olunmuş ərazilərimizdə yeni yollar çəkilir, yaşıllıqlar salınır, viran qalmış yerlərimizə yenidən həyat qayıdır. Torpaq həsrəti çəkən soydaşlarımız ata-baba yurdlarına dönürlər. İllərlə arzulayırdıq ki, torpaqlarımız işğaldan azad olunsun və orada Novruz tonqalları alovlansın. Şükür olsun, 5 ildir ki, azad olunmuş ərazilərimizdə Novruz tonqalları ətrafında xalqımızın oğul və qızları toplanaraq əziz bayramını təntənə ilə qeyd edirlər. Arzu edirəm ki, üçrəngli bayrağımız daima ucalarda dalğalansın. Bayramımız mübarək, qəhrəman Azərbaycan xalqı!



**Əsgər Tacir Məmmədov:**

- Novruz bayramı əsrlər boyu Azərbaycan xalqının milli kimliyini, mədəni dəyərlərini və birliyini özündə əks etdirən ən qədim və ən sevimli bayramlardan biridir. Artıq Azərbaycan xalqı 5 ildir ki, Novruz bayramını təkcə təbiətin oyanışı kimi deyil, həm də Böyük Qələbənin ruhu ilə qeyd edir. Biz bu bayramı qalib xalq, qalib dövlət, qalib ordunun əsgərləri olaraq qarşılayırıq.

Bu gün biz - Azərbaycan Ordusunun hərbi qulluqçuları Vətənimizin keşiyində dayanaraq, xalqımızın firavanlığı, dövlətimizin təhlükəsizliyi üçün xidmət edirik. Hər bir azərbaycanlının Novruz tonqalı ətrafında rahatlıqla bayram sevincini yaşaması üçün daim ayıq-sayıq xidmət aparırıq. Hər zaman olduğu kimi, bu gün də qalib ordunun əsgərləri olaraq şanlı zəfər yolumuzu davam etdiririk. Ölkəmizin ərazi bütövlüyünü və suverenliyini qorumaq ən ali borcumuzdur.

O, ilk təhsilini Gəncədəki progimnaziyada alıb. 16 yaşında həmin məktəbi bitirən Süleyman bəy 1880-ci ildə Ukraynaya gedib və Yelizavetqrad Süvari Məktəbinə qəbul olub, 1885-ci ildə oranı müvəffəqiyyətlə bitirib. Hərbi xidmətə Qafqaz Süvari Ordusunun polis nəzarəti idarəsində başlayan gənc zabit Süleyman bəyə iki il sonra mayın 18-də “kornet” hərbi rütbəsi verilib.

Bundan sonra isə onun Rusiya ordusu tərkibində hərbi xidməti başlayıb. Süleyman bəyin xidmət yolu əsasən Qafqazla bağlı olub. Eskadron komandiri Süleyman bəy Əfəndiyev nümunəvi xidmətinə görə 1899-cu il martın 15-də “rotmistr” rütbəsinə layiq görülüb və ona kavaler kimi fəxri ad verilib. 1900-cü ildə isə üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunub.

Xidmət yeri bir neçə dəfə dəyişdirilən Süleyman bəy 1907-ci il fevralın 28-dən Zaqafqaziya polis keşikçi dəstəsinin Kutaisi quberniyası üzrə baş nəzarətçisi təyin olunub.

Süleyman bəy Əfəndiyev yalnız hərbçi kimi deyil, həm də xalqımızın maariflənməsində görkəmli ictimai xadim kimi fəal iştirak edib. Tez-tez Qori Müəllimlər Seminariyasına gələn S.Əfəndiyev burada təhsil alan azərbaycanlı tələbələrin güzəranı ilə maraqlanıb, onlardan maddi köməyini əsirgəməyib. Görkəmli maarifçi, ədəbiyyatşünas Firudin bəy Köçərli və Səfərəli bəy Vəlibəyovla dost olub, Tiflisdə azərbaycanlıların təşkil etdiyi mədəni-maarif cəmiyyətinin işində yaxından iştirak edib.

## Görkəmli şəxsiyyətlər

# AXC hökumətinin qərarı ilə general-mayor rütbəsinə layiq görülən ilk hərbçi - **Süleyman bəy Əfəndiyev**

Peşəkarlığı və qüsursuz xidmətləri nəzərə alınaraq S.Əfəndiyevə 1912-ci il dekabrın 6-da “polkovnik” rütbəsi verilib.

Süleyman bəy Əfəndiyev imperiya ordusundakı xidmətlərinə görə üçüncü və ikinci dərəcəli "Müqəddəs Anna", ikinci dərəcəli "Müqəddəs Stanislav", üçüncü dərəcəli "Müqəddəs Vladimir" ordenlərinə layiq görülüb.

Polkovnik Süleyman bəy Əfəndiyevin imperiya ordusunda sonuncu vəzifəsi Əlahiddə Qafqaz ordusunda Zaqafqaziya polis keşikçi dəstəsinin təftiş yoxlama üzrə baş nəzarətçisi olub.

Süleyman bəy Əfəndiyevin ən böyük və danılmaz xidməti isə 1917-ci ilin iyulundan başlayaraq Azərbaycan Milli Ordusunu yaratmaq təşəbbüsü olub. Belə ki, 1917-ci ilin fevral çevrilişindən sonra Qafqazdakı Rusiya ordusu buraxılarkən Zaqafqaziya Komissarlığının sərəncamı ilə Gəncəyə göndərilən polkovnik S.Əfəndiyev ilk günlərdən azərbaycanlılardan ibarət könüllü silahlı dəstələrin təşkilinə başlayıb.

AXC Hərbi Nazirliyi yaradılanda polkovnik S.Əfəndiyev Tərtərdə yerləşən 2-ci Qarabağ Süvari Alayının komandiri olub. 1917-ci il dekabrın ortalarında Müsəlman korpusunun təşkilinə başlanıb. Süleyman bəy bu korpusda 5-ci atıcı alayın komandiri olub. O, bir müddət hətta Müsəlman Korpusunda ikinci diviziya komandirinin vəzifəsini də icra edib.

***Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev 1864-cü il oktyabrın 5-də Ağdamda dünyaya gəlib. Onun mənsub olduğu "Cənnətoğulları" və ya "Əfəndi öyü" ruhani nəsli Qazax mahalının Dağkəsəmən kəndinin nüfuzlu soylarından olub.***

Polkovnik S.Əfəndiyev peşəkar hərbçi kimi Gəncədə ilk hərbiyyə məktəbinin və Gəncə Süvari Alayının yaradılmasında, hərbi kursların açılmasında, Azərbaycan Ordusu üçün 150 nəfərdən ibarət ilk təlim komandasının təşkil edilməsində böyük xidmətləri olan görkəmli hərbçilərimizdəndir.

Süleyman bəy Qafqaz İslam Ordusunun tərkibində Azərbaycanın bolşevik-daşnak qoşunlarından təmizlənməsində də fəal iştirak edib.

1918-ci il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi təşkil edilənə kimi, Süleyman bəy bir sıra vəzifələrdə xidmət edib. Süleyman bəy haqqında az-çox məlumat onun AXC Hərbi Nazirliyinin bərpasından sonrakı dövrdəki xidmət yolu ilə bağlıdır. 1918-ci ilin sonlarında Azərbaycan Ordusu böhran içərisində olduğu bir vəziyyətdə S.Əfəndiyev 2-ci Qarabağ süvari alayının formalaşdırılması üçün çox böyük əzm və fədakarlıq göstərib.

Polkovnik S.Əfəndiyevin Azərbaycan hökuməti qarşısında sədaqətli xidmətini nəzərə alaraq, Hərbi nazir artilleriya generalı S.Mehmandarovun təqdimatına əsasən, AXC Nazirlər Şurasının qərarı ilə o, “general-mayor” rütbəsinə layiq görülüb və daha yüksək vəzifəyə - 1-ci Piyada Diviziyasının komandiri vəzifəsinə təyin edilib.

S.Əfəndiyev AXC hökuməti tərəfindən general-mayor rütbəsi alan ilk milli hərbçi olub.

1919-cu il yanvarın 7-dən Süleyman bəy Əfəndiyev AXC ordusunun 1-ci Piyada Diviziyasının icrasına başlayıb və özünəxas işgüzarlıqla, peşəkarlıqla və məsuliyyətlə bu diviziyanın formalaşdırılmasına başlayıb.

General-mayor S.Əfəndiyev Ağdamda ilk dəfə pulemyotçuluq üzrə kiçik zabitlər məktəbi yaradıb. Bu məktəblərdə zabitlər əsgərlərlə birlikdə çalışır, həm öyrənir, həm də öyrədirdilər. Bir dəfə də olsun əlinə silah götürməyən gənc əsgərlərə şəxsən özü təlim keçir. O, qısa müddətdə alayı əsl hərbi hissə kimi formalaşdırıb.

İstər Hərbi Nazirlik, istərsə də Azərbaycan hökuməti üçün bu diviziyanın formalaşdırılması və təşkilatlandırılması çox böyük əhəmiyyət kəsb edib. Çünki bu diviziya Qarabağda erməni təcavüzkarlığının qarşısını almaq üçün əsas qüvvə kimi nəzərdə tutulmuşdu.

Təəssüf ki, milli ordu quruculuğuna böyük töhfələr verən general-mayor S.Əfəndiyev xidməti vəzifəsi zamanı yoluxduğu səpmə-yatalaq xəstəliyi səbəbindən 1919-cu il fevralın 21-də Ağdamda vəfat edib.

Fevralın 24-də S.Əfəndiyevin tabutu Gəncəyə gətirilib. Həyat yoldaşı Lalə̈ndar xanımın xahişi ilə onu Qazaxda dəfn ediblər. Onun vəfatı ilə əlaqədar başda hərbi nazir general S.Mehmandarov olmaqla, AXC ordusunun general və zabitləri, eləcə də hökumətin digər siyasi xadimləri dövri mətbuatda verdikləri başsağlıqlarında general-mayor S.Əfəndiyevi tanınmış ictimai xadim, Azərbaycanın ilk hərbi hissələrinin təşkilatçısı kimi dəyərləndirərək onun xalqımız və ordumuz üçün böyük itki olduğunu bildiriblər.

**"Azərbaycan Ordusu"**

## Sıra hazırlığı

# Əsgəri yeriş nizamdır, nizam - döyüş hazırlığı





**(Əvvəli 1-ci səhifədə)**

Hərbi xidmətimin ilk gününü xatırlayıram. Komandirimiz bizə hərbi salamlaşmanın elementlərini öyrətmişdi. Sıra hazırlığının elementlərini də izah etmişdi. Əsgəri yerişin mahiyyətini onda başa düşmüşdüm. Nizami yerişlə ötüb-keçən əsgərlərə baxmışdıq.

Ezamiyyətdə olduğum zaman hərbi hissədəki bölmələrdən birinin sıra hazırlığı məşğələsini izlədim. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş İlham Yəhyayev sıra hazırlığının elementlərini şəxsi heyətə bir daha xatırlatdı, sonra praktiki olaraq göstərdi. Deyilənləri və göstərilənləri əsgərlər ardıcıllıqla yerinə yetirirdilər. Belə təlimin mahiyyəti pedaqoji prosesdir: müəllim, yəni, komandir öyrədir, şagird, yəni, əsgər öyrənir. Az sonra əsgərin əsgəri yerişi hərbi xidmətlə davam etdiriləcək döyüş hazırlığının başlanğıcı olur.

- Əsgəri yeriş adi yeriş deyil. Əsgər bu yeriş üçün həm qollarını, həm də ayaqlarını necə hərəkət etdirməyi öyrənir. Sonra vəhdətdə iki-iki, üçüç, ... təkrarlamaqla öyrəndiyi hərəkətləri təkmilləşdirir, - kiçik çavuş İ.Yəhyayev bildirdi.

İ.Yəhyayev, həmçinin qeyd etdi ki, sıra hazırlığı məşğələsində əsgərlər yüksək əzmkarlıq göstərir, onun elementlərini düzgün yerinə yetirmək üçün əllərindən gələni edirlər. "Verilən tapşırıqları necə yerinə yetirmələrindən görünür ki, onların öyrənmək həvəsi böyükdür. Bizim də borcumuzdur ki, bilik və bacarıqlarımızdan istifadə edərək şəxsi heyətin hazırlığını artıraq".

Əsgərlər Rəsul Bağırov, Əmrah Səfərzadə, Sabir Cabbarov və digərləri dedilər ki, hərbi xidmətin ilk günlərindən verilən tapşırıqların yerinə yetirilməsində bir-birilərinə kömək ediblər: "Əsgər yoldaşlarımız bizə xidmətə yeni gələndə sıra hazırlığının elementlərini öyrənməyə köməklik göstərirdilər. İlk vaxtlar düzgün addımlamağımızda, əsgəri salamlaşma və digər hərəkətlərin icrasında müəyyən çətinliklərimiz olurdu. Peşəkar komandirlərimizin sayəsində artıq bütün elementləri rahatlıqla yerinə yetirə bilirik. Bu gün sıra hazırlığımızın yüksək səviyyədə olmasında onların əməyi böyükdür”.

Sıra hazırlığı məşğələsi başa çatdı. "Əsgərlərin sıra hazırlığı məşğələsi Sıra Nizamnaməsinə əsasən keçirilir. İlk vaxtlar bu hazırlıqda müəyyən çətinliklərlə üzləşənlər zaman keçdikcə sıra elementlərini asanlıqla yerinə yetirə bilirlər. Bugünkü məşğələ öyrədilmişlərin təkrarıdır, vərdişlərin təkmilləşdirilməsidir. Sıra nizami yerişdir, nizami yeriş isə yüksək döyüş hazırlığına aparır", - kiçik çavuş İ.Yəhyayev dedi.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Mövqelərimiz atəşə tutulub

Martın 16-sı saat 18:35 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Xəznəvar yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun mövqelərini atıcı silahlardan atəşə tutub.

* * *

Martın 16-sı saat 20:10-dan 20:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Burun yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun mövqelərini atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

* * *

Martın 17-si gecə saat 01:25-dən gündüz saat 12:55-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Zağalı və Gorus rayonunun Dığ yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

* * *

Martın 17-si saat 17:25-dən 21:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Saybalı, Çənbərək rayonunun Vaqan və Basarkeçər rayonunun İstisu yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

* * *

Martın 17-si saat 22:15-dən martın 18-i saat 00:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Arpa, Qarakilsə rayonunun Saybalı və Çənbərək rayonunun Vaqan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

* * *

Martın 18-i saat 08:55 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

* * *

Martın 18-i saat 16:40-dan 18:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Almalı və Basarkeçər rayonunun İstisu yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

* * *

Martın 18-i saat 22:20-dən martın 19-u saat 01:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod, Yuxarı Şorca və Qarakilsə rayonunun Bazarçay yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan yenidən fasilələrlə atəşə tutub.

* * *

Martın 19-u saat 14:15 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

* * *

Martın 19-u saat 19:00-dan 19:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Keşişkənd rayonunun Arpa yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

# Ən sevimli və bərəkətli bayram




Novruz bayramı Şimal yarımkürəsində astronomik olaraq yazın başlandığı - gecə ilə gündüzün bərabərləşdiyi gündə (martın 20-si, 21-i və ya 22-sində) qeyd olunur. Bu zaman gecə ilə gündüz bərabərləşir, Günəş ekliptika üzrə hərəkət edərək ekvatoru kəsir və Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçir. Həmin andan Şimal yarımkürəsində yaz fəsli başlayır.

Bir sıra xalqlar ta qədimdən yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayıb, bu münasibətlə şənliklər keçirib, onu yeni ilin başlanğıcı kimi bayram ediblər. Qədim zamanlardan başlayaraq bir çox Şərq ölkələri kimi, Azərbaycanda da baharın - yeni ilin gəlişini müəyyən şənliklərin və ritualların keçirilməsi ilə qarşılayıblar. Martın 21-i bəzi Şərq ölkələrində rəsmi təqvimin ilk günü sayılır.

"Novruz" hərfi mənada "yeni gün" deməkdir. Amma ifadə etdiyi mərasim semantikasına görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. Novruz anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Novruz haqqında məlumatlara Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və başqa əsərlərdə rast gəlinir. Alimlərin araşdırmalarına əsasən bayramın tarixi ən azı 3700, ən çoxu 5000 ilə yaxın hesab edilir. Bəzi yazılı mənbələrdə isə Novruz bayramının eramızdan əvvəl 505-ci ildə yarandığı qeyd olunub.

Təbiətin oyanması, həyatın canlanması Novruzdan başlanır. Xalqımız Novruzun gəlişini ən azı dörd həftə əvvəldən qeyd etməyə başlayır. Belə ki, ardıcıl olaraq dörd həftənin hər ikinci günləri - Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi qeyd olunur. Ənənələrə görə birinci çərşənbə günü su və su mənbələri təzələnir, ikinci çərşənbədə od, üçüncü çərşənbədə yel və nəhayət, dördüncü çərşənbədə torpaq, təbiət oyanır və bu baharın gəlişindən xəbər verir.

Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Bu bayramın tarixi inkişafına baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük.

Qədim dövrlərdə Novruz təkcə xalq bayramı kimi deyil, eyni zamanda, dövlət bayramı kimi qeyd olunub. Tarixi məlumatlara görə, Novruz bayramı bir ay davam edib. Bu bayram şənliklərində kütləvi gəzintilər, xalq oyunları, nəğmələrin oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olub.

Sovet dövründə Novruz bayramının keçirilməsinə sərt qadağalar qoyulsa da, xalqımız onu həmişə qeyd etməyə can atıb. Milli adət-ənənələrimizə, o cümlədən Novruz bayramına yüksək qiymət verən Ulu Öndər Heydər Əliyev deyib: "Novruz xalqımızın əsrlərdən bəri qoruyub saxladığı və bütün dövrlərdə həmişə əziz tutduğu bayramlardan biridir. Onun tarixi də Azərbaycan xalqının tarixi kimi keşməkeşli, enişli-yoxuşlu olmuşdur. Bu ulu bayramın müstəqil respublikamızda dövlət səviyyəsində qeyd edilməsi öz milli köklərimizə, adət-ənənələrimizə, tarixi keçmişimizə dərin ehtiram bəslədiyimizi və sarsılmaz tellərlə bağlı olduğumuzu nümayiş etdirir".

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsindəki qələbəmizdən, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpasından sonra ölkəmizin hər bir yerində qalanan bayram tonqalları daha gur yanır, xalqımız Novruzu daha böyük təntənə ilə, qürurla, fəxarətlə və sevinclə qeyd edir.

Bolluğun, bərəkətin və xeyirxahlığın təcəssümü olan bu bayram Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti nəticəsində 2009-cu il sentyabrın 30-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i Beynəlxalq Novruz Günü elan edilib.

Əsrlərdən qalan ənənələrə sadiq olaraq, bu gün də hər bir azərbaycanlı ailəsi bu bayramı böyük coşqu, sevinc və təntənə ilə qeyd edir.

Novruz ən sevimli və bərəkətli bayramdır. Bayramımız mübarək olsun!

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul elan edir




Müdafiə Nazirliyi cari ilin 30 aprel tarixinədək müddətdən artıq həqiqi hərbi xidmətə sənəd qəbulu elan edir. Sənəd qəbulu **18 mart-30 aprel** tarixlərində (bayram və qeyri-iş günləri daxil) elektron qaydada, həmçinin **1 aprel-30 aprel** tarixlərində regional sənəd qəbulu mərkəzlərində olmaqla iki formada həyata keçiriləcəkdir. Namizədlərin yuxarıdakı üsullardan hər hansı biri vasitəsilə sənədlərini təqdim etmələri yetərli hesab olunur. Sənəd qəbulu mərkəzləri Gəncə, Sumqayıt, Lənkəran, Mingəçevir, Quba, Ağcabədi və Şirvan şəhərlərində yerləşən Dövlət Məşğulluq Agentliyinin məşğulluq filiallarında və xidmət şöbələrində, Bakı şəhərində isə Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda (Ünvan: Bakı şəhəri, Xətai rayonu, Polad Həşimov küçəsi 9a) fəaliyyət göstərəcək. İlk dəfə tətbiq edilən bu yanaşma ölkə üzrə əhatəliliyin, əlçatanlığın və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədinə yönəlmişdir.

Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na ən azı ümumi orta təhsilli, müddətli həqiqi hərbi xidmətini başa vurmuş, 30 yaşınadək hərbi vəzifəlilər, eləcə də Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmiş, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "a" bəndinə (xidmət müddəti başa çatdığına görə) və "q" bəndinə (ştat ixtisarına görə) müvafiq olaraq ordu sıralarından ehtiyata buraxılmış 40 yaşı tamam olmayan hərbi vəzifəlilər qəbul edilirlər.

Elektron qaydada müraciət etmək istəyən namizədlər mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindəki "Çavuş hazırlığı (MAHHXHQ)" hissəsinə keçid edərək elektron sənəd qəbulu portalından müvafiq sənədlərlə tanış ola və müraciət edə bilərlər.

Kursa qəbul olmaq üçün müraciət etmiş namizədlər hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə qəbul komissiyası tərəfindən Müdafiə Nazirliyinin müvafiq tibb müəssisələrinə göndərilir. Hərbi Həkim Komissiyasının qərarına əsasən hərbi xidmətə yararlı hesab edilmiş şəxslər müsabiqə mərhələsinə buraxılırlar.

Namizədlər müsabiqə mərhələsində fərdi-psixoloji və fiziki hazırlığı, ümumi bilik səviyyəsi, hərbi uçot və mülki ixtisası (olduğu halda), peşə səriştəsi nəzərə alınmaqla, ixtisas seçimi imkanı yaradılaraq kursa qəbul edilirlər.

Xidmətə təyinat zamanı, kursu müvəffəqiyyətlə başa vurmuş şəxslərə bölgələr üzrə xidmət yerlərinin seçilməsi üçün azad seçim imkanı təqdim edilir.

**Tələb olunan sənədlər:**

- kursa qəbul olunmaq barədə ərizə;
- anket forması;
- tərcümeyi-hal (1 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə);
- əlavə peşə və ya ixtisasınız varsa təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və s.);
- şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə);
- sürücülük vəsiqəsinin surəti (əgər varsa, 1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqların şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə);
- rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm, 2 ədəd 4.5x6 sm və 3 ədəd 9x12 sm);
- hərbi biletin bütün vərəqlərinin surəti (notarial qaydada təsdiq olunmuş, 1 nüsxədə);
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

**İmtiyazlar:**

Kurs müddətində

- əşya, ərzaq, tibbi, yaşayış yeri (yataqxana), həmçinin aylıq pul təminatı.

Xidmət müddətində

- kiçik çavuş, çavuş, baş çavuş rütbəsinin verilməsi;
- xidməti mənzil və ya müvəqqəti yaşayış sahəsinin kirayəsi üçün pul kompensasiyasının təmin edilməsi;
- il ərzində birdəfəlik verilən maddi yardım, növbəti məzuniyyətə çıxarkən əlavə pul təminatı, qüsursuz hərbi xidməti nəzərə alınmaqla əsas vəzifə və rütbə maaşının iki misli həcmində birdəfəlik pul mükafatı;
- ailə üzvləri üçün güzəştli tibbi təminat;
- güzəştli ipoteka krediti;
- Azərbaycan Ordusunda 20 təqvim ili və daha çox qüsursuz xidmət etdikdə dövlət vəsaiti hesabına mənzillə təmin olunması;
- karyerada inkişaf.

**Qeyd:** Müddətdən artıq həqiqi hərbi xidmətdən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "e" bəndinə (xidməti uyğunsuzluğa görə) müvafiq olaraq ehtiyata buraxılmış hərbi qulluqçuların və məhkumluğunun ödənilməsindən asılı olmayaraq məhkum olunmuş hərbi vəzifəlilərin kursa qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Əlaqə məlumatları:**
Telefon: - (012) 404-18-45
Çağrı mərkəzi: - *0811
E-poçt: admission@mmu.edu.az
Ünvan: Bakı şəhəri, Qızıl Şərq 13. AZ1065

# Kursantlar muzeyə ekskursiya ediblər







Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutun kursantları Müasir İncəsənət Muzeyinə ekskursiya ediblər.

Kursantlar muzeyin müxtəlif bölmələrində sərgilənən rəsm əsərləri ilə yaxından tanış olub, həm milli, həm də dünya sənət nümunələri haqqında geniş məlumatlar əldə ediblər.

Muzeydə sərgilənən əsərlərə maraqla tamaşa edən gənclər, müasir incəsənətin sosial və mədəni aspektlərini daha yaxından öyrənmək imkanı qazanıblar.

**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nəci Vasif Mübariz oğluna verilmiş AD № 0064799 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Əli ABIYEV

Lisenziya № **361**
Sifariş № **103**
Nüsxə **3663**